**Coşqun SADIQOV**
AMK-nın müəllimi
Ünvan: Bakı, Yasamal rayonu, Ələsgər Ələkbərov 7

# BALABAN ALƏTİNİN İNKİŞAFINDA İFAÇILARIN ROLU

***Xülasə:*** *Məqalədə balaban alətinin inkişafında ifaçıların rolundan söhbət açılır. Burada balaban ifaçılarının yaradıcılığı haqqında məlumat və bu alətin dünyada təbliği istiqamətində aparılan işlər öz əksini tapır. Həmçinin, balaban alətinin ədəbi-tarixi qaynaqlarda şərhi məsələləri də vurğulanır.*
***Açar sözləri****: balaban, musiqi, sənətkar, ifaçı, mədəniyyət*

Həzin duyğuları – sevgini, həsrəti, ağrını, itkini, könül fəryadını balaban qədər məhrəm, mənalı ifadə edən ikinci musiqi aləti tapmaq çətindir. Balaban insanın bölüşdüyü, sirrini-sözünü pıçıltı ilə deyə bildiyi əlçatan musiqi alətlərindənbiridir. Bu alətin səsindəki həzinlik, inilti, sızıltı başqa musiqi alətlərindən fərqlidir. Balaban insanın mənəvi dünyasındakı səs, ahəng çalarlarını daha dəqiq ifadə edir, insanlara həm sirdaş olur, həm də dinləyənlərə olumlu-ölümlü dünyanın ən ağır dərdlərini daşımağa, onları ovundurmağa təkan verir.

Ucar rayonunun Bərgüşad kəndində arxeolojinqazıntılar nəticəsində 2 min ildən artıq yaşı olan gümüş üzük tapılıb (2, s. 231). Üzüyün üstündə nəfəslə çalınan çalğı alətinin şəkli həkk olunub ki, bu da balabana çox bənzəyir. Bu da Azərbaycanın zəngin musiqi xəzinəsində xüsusi yeri olan balabanın ən qədim nümunəsi sayıla bilər.

El arasında bu alətə “yastı balaban”, “balaman”, “mey” də deyilir. “Bala” və “ban” sözlərinin birləşməsindən əmələ gələn bu ad “kiçik, həzin səs” mənasını verir. Yumşaq və həzin səsə malik balabandan ansambl və orkestrdə, həmçinin solo ifa aləti kimi də istifadə edilir. Bəzən aşıqların ifası da balabanla müşayiət edilir. Balabanın işlək səs diapazonu kiçik oktavanın g səsindən ikinci oktavanın d səsinə kimidir. Çalğıçının ustalığından asılı olaraq bir neçə səs artırıla bilər.

Bu alətin tədqiqatçılarından biri sənətşünaslıq üzrə elmlər doktoru, professor Abbasqulu Nəcəfzadə bəzi mütəxəssislərin bu aləti ney və yaxud tütək adlandırdığını deyir: “Böyüdücü şüşə vasitəsi ilə baxanda isə ifaçının yanaqlarının şişmiş vəziyyətdə olduğu açıq-aydın görünür. Bu cür ifa tərzi zurna və balabana məxsusdur. Alətin quruluşu isə balabana daha çox bənzəyir. Odur ki, mütəxəssislərin qənaətinə görə, yaşı 2 min ildən artıq olan bu tapıntı məhz balabanla bağlıdır” [8, s. 161].

Balaban bir sıra ədəbi mənbələrdə, klassik şairlər tərəfindən vəsf edilib. Qədim dövrün balaban ifaçılarının adı təəssüf ki, dövrümüzə gəlib çıxmayıb. XVI əsrdə yaşamış azərbaycanlı şair, tarixçi İsgəndər Münşi öz əsərlərində Ustad Əsəd Surnayi, Hüseyn Surnayi, Şahməhəmməd Surnayi kimi zurna ifaçılarının adını yazır. Zurna çalanların ilkin öyrəndiyi alət isə balaban olurmuş. Deməli, onları həm də balaban ifaçıları hesab etmək olar (10).

Azərbaycan milli musiqi aləti balabanın təsvirinə rusiyalı rəssam Qriqori Qriqoyeviç Qaqarinin rəsmində rast gəlirik. Əsərdə XIX əsrin ortalarında Şamaxıda fəaliyyət göstərən Mahmud ağanın məclisləri əks olunub və o məclisdə Mahmud ağanın ən çox sevdiyi balaban ifaçısı Murad Mirzalıoğlu təsvir olunur. Ağsulu yastı balaban ustası Əli Kərimov çağdaş Azərbaycan zurna-balaban məktəbinin yaradıcısı hesab olunur [8, s. 154].

Balaban aləti ilə bağlı ilk dərsliyi 1937-ci ildə nəfəs alətləri ifaçısı Saleh Əbdüləlimov hazırlamışdır. Sözügedən dərsliyin redaktoru Üzeyir bəy olmuşdu. Həmin dövrdə bizim dərsliklər Moskvada, xüsusi razılıq əsasında çap olunurdu. Moskvadan cavab gəlir ki, bu dərslik "*Şkola dlya duduka*" adı altında çap edilməlidir. Üzeyir bəy də bildirir ki, bizim xalq bu alətə heç vaxt duduk deməyib və odur ki, xalqın heysiyyətinə toxunmayın. Əgər belədirsə, bizə bu adda dərslik lazım deyil. Həmin səbəbdən bu dərslik çap olunmur. Sözügedən dərslik son illərə qədər əlyazma şəklində Hüseyn Cavidin Ev Muzeyində saxlanılıb. Sevindirici hal odur ki, dərslik son illərdə çap olunub (4, s. 5).

Balaban alətinin daha bir tədqiqatçısı və ifaçısı əməkdar artist, sənətşünaslıq üzrə fəlsəfə doktoru, AMK-nın professoru İlham Nəcəfovun bu barədə fikirləri maraqlıdır: "Üzeyir bəy bilirdi ki, milli nəfəs alətləri bir-biri ilə qohumdur. Saleh Əbdüləlimov da ixtisasca klarnet ifaçısı olub. Bu alətin öz inkişaf mərhələsinə çatması üçün dərsliyin çox böyük önəmi var. Bu yöndə də o, balabanın inkişaf etməsi üçün işıq ucu tutub. Yəqin ki, nəşrlə bağlı problemlərdən dolayı Ərtoğrul Cavidə verilib və bu fakt bizə Hüseyn Cavidin Ev Muzeyində məlum olub. Son illər isə dərslik Nazirlər Kabinetinin göstərişi ilə nəşr olunub və redaksiya heyətində mən də varam" (6, s. 4).

Balabanın məlahətli və həzin səsini bütün dünyada tanıtmaq vacibdir. Onu da qeyd edək ki, bu sahədə Azərbaycan Milli Konservatoriyasının rolu müstəsnadır. Bu təhsil ocağının rektoru, xalq artisti, professor Siyavuş Kəriminin birbaşa təşəbbüsü və rəhbərliyi ilə AMK yarandığı gündən etibarən milli nəfəs çalğı alətlərinin tədrisi fəaliyyətə başlamış və bu da öz müsbət nəticəsini göstərməkdədir. Artıq neçə illərdir balaban və başqa milli nəfəs alətləri sinfi üzrə məzunlar Milli Konservatoriyanın adını ucaldırlar. Bu, fəxr ediləsi faktdır ki, balaban və eyni zamanda başqa milli nəfəs çalğı alətləri ali məktəb səviyyəsində tədris proqramına daxil edilmişdir.

Artıq neçə illərdir ki, professor S.Kəriminin təşəbbüsü ilə AMK-da balabançalanlardan ibarət qrup fəaliyyət göstərir. Qrupun tərkibində adi (prima) balabanlardan başqa pikkolo (cürə), bas (bəm), tenor növlərindən də geniş istifadə edilir. Onu da bildirək ki, balabanın yeni növlərini konservatoriyanın "Milli musiqi alətlərinin təkmilləşdirilməsi" elmi-tədqiqat laboratoriyasının keçmiş əməkdaşı Babaxan Əmirov hazırlayıb [4, s. 158]. Bu da qədim milli musiqi alətimizə artan diqqətin göstəricisidir.

"Qədim musiqi alətləri" Dövlət Ansamblının yaradıcısı və bədii rəhbəri, sənətşünaslıq üzrə elmlər doktoru, professor, xalq artisti Məcnun Kərimov söyləyirdi ki, qədim musiqi alətləri vaxtaşırı tədqiqatçıların araşdırma obyektinə çevrilsə də,

onların bərpası və səsləndirilməsi ayrıca elmi tədqiqat sahəsi olmamışdır. Çox təqdirəlayiq haldır ki, o özü bu işin öhdəsindən bacarıqla gəldi [6, s. 34].

Balabanın ən savadlı və mahir ifaçıları ruhları muğamla yoğrulmuş azərbaycanlılardır. Azərbaycanda bu alətin yarandığı gündən etibarən çoxsaylı və mükəmməl ifaçıları olub və olmaqdadır. Belə ki, Azərbaycanda Həsən Əliyev, Əli Kərimov, Şahalı İsmayılov, Mehdi Nəzərli, Həsən Baxşalıoğlu, Müseyib Abbasov, Əlipaşa Qaytaranoğlu, Şahmurad Tahirov, Həsrət Hüseynov, İzzətalı Zülfüqarov, Bəhruz Zeynalov, Rza Məmmədov, Qaraçı İsmayıl, Nadir Talıbov, Cənnətalı Hacıyev, Ağası Ağasızadə, Məhərrəm Mövsümov, Manaf Məmmədov, Ağasəf Seyidov, Ələfşər Rəhimov, Ələkbər Əsgərov, Elşad Cabbarov, Həsənağa Sadıqov, Həsən Məhərrəmov, Əlicavad Cavadov, Əşrəf Əşrəfzadə, Mübariz Atayev, Fərhad Hüseynov, Məhərrəm Nəcəfzadə və digər virtuoz balabançıların çoxlu sayda davamçıları yetişib [1, s. 56]. Bu gün Əlixan Səmədov, Şirzad Fətəliyev, Rəfael İskəndərov, Coşqun Sadıqov, Pərviz Quliyev, Nicat Məsimov, Ramin Pələngov və başqaları bir çox ölkələrdə Azərbaycanın balaban səsini ucaldırlar.

Azərbaycanın tanınmış sənətkarı klarnet, eləcə də balaban ifaçısı Ələkbər Əsgərov Əlibaba Məmmədovun "Hümayun" və Əliağa Quliyevin ansambllarında gözəl ifaçılardan biri olmuşdur. 1966-cı ildən 1995-ci ilədək Ələkbər Əsgərov Sumqayıt Musiqi Texnikumunda balaban sinfi üzrə müəllim kimi fəaliyyət göstərib. Müəllimlik fəaliyyəti ilə yanaşı, Ələkbər Əsgərov 1973-cü ildə SSRİ xalq artisti Rəşid Behbudovun rəhbərlik etdiyi Azərbaycan Dövlət Mahnı Teatrına dəvət alır. Bu kollektivin tərkibində Ələkbər Əsgərov nəinki keçmiş SSRİ-də, həmçinin Liviya, Yəmən, İrlandiya, Almaniya, İsveçrə, Şotlandiya, İngiltərə, Misir, və s. xarici ölkələrdə qastrol səfərlərində olmuşdur.

Ömrünün son illərində Ələkbər Əsgərov Sumqayıt Musiqi Texnikumunun müəllimlərindən ibarət "Dügah" folklor ansamblını yaradır. Bu ansambl öz alət tərkibinə, repertuar və ifa üslubuna görə bütün respublikada yeganə və orijinal idi. Sənətkarın ifa etdiyi "Şur", "Rast", "Segah", "Çahargah", "Hümayun", "Rəhab", "Bayatı-Şiraz", "Şüştər", "Zəmin-Xara", "Mahur", "Bayatı-Qaçar" muğamları; "Vağzalı", "Tərəkəmə", "Şalaxo", "Qazaxı", "Uzundərə" və s. xalq rəqsləri; bəstələdiyi "Maralı", "Mehribanı", "Natəvanı", "Rasimi" rəqs melodiyaları (oyun havaları) və "Dügah" folklor ansamblının lent yazıları Azərbaycan Dövlət Teleradio şirkətinin Qızıl fondunda qorunub saxlanılır.

Həsənağa Sadıqov da dövrümüzün mahir balaban ifaçılarındandır. Atası və babası milli aşıq sənətinin bilicilərindən olub. Həsənağa Sadıqovun babası Aşıq Qurbanxan nəinki Muğan bölgəsinin otaylı-butaylı Azərbaycanımızın ən məşhur aşıqlarındandır. O, xalqımızın görkəmli el sənətkarı Mirzə Bilaldan dərs alıb. H.Sadıqov hələ kiçik yaşlarından atasının və babasının yanında toylara gedər, müxtəlif musiqi alətlərində ifa etməyi, istedadlı musiqiçilərdən öyrənməyə çalışardı.

1963-cü ildə Bakıda Həsənağa Sadıqovun ilk maqnitofon kasseti çıxıb, zərb alətlərində bacarıqla çaldığı mahnılar və ritmlərlə məşhurlaşıb. Həsənağa Sadıqov, həmçinin çalğı nəfəs alətlərinin, o cümlədən balabanın bacarıqlı və istedadlı ifaçısı olaraq, nəzəri ixtisasının artırılmasına da xüsusi fikir verib. Belə ki, o, 1986-cı

ildə Azərbaycan Dövlət İncəsənətUniversitetinin "Mədəni-maarif işi" ixtisası üzrə bitirib. 1985-ci ildə Ümumdünya musiqi festivalında iştirak edən Həsənağa müəllim bacarıqlı musiqi istedadı ilə münsiflər heyətinin və tamaşaçıların dərin rəğbətini qazanıb, festivalın Qızıl medalı ilə təltif olunub. Həsənağa Sadıqov Amerika Birləşmiş Ştatlarında, Norveçdə, Vyetnamda, Almaniyada, eləcə də Afrika qitəsinin bir çox ölkələrində geniş konsert proqramı ilə çıxış edib (13). 1988-ci ildə Həsənağa Sadıqova Azərbaycan SSR əməkdar mədəniyyət işçisi fəxri adı verilib. Onun köməklik və təşəbbüsü ilə "Mahirlər" ailə ansamblı yaradılıb və bu gün də fəaliyyət göstərir.

Onu da qeyd edək ki, Azərbaycandan kənarda yaşayan balaban ifaçılarımız da bu sahədə böyük əmək sərf edirlər. Azərbaycanın tanınmış sənətkarı, virtuoz balaban ifaçısı, əməkdar artist Əlixan Səmədovun balaban alətinin inkişafında, dünyada tanınmasında müstəsna xidmətləri var. 1993-cü ildən Türkiyədə yaşayıb işləyən sənətkar bir neçə yerli və xarici mükafatların qalibi və laureatıdır.

Tarixi qədim dövrlərə gedib çıxan milli musiqi alətimizin Azərbaycana məxsus olmasını sübut etməkdə böyük rolu olan Əlixan Səmədov hazırda da bu istiqamətdə mühüm işlər görür. Belə ki, o, "Balaban metodu" kitabını yazmaqla bu alətin daha da inkişaf etməsinə yardımçı olmuşdur. Bu nəşrdə həmin musiqi aləti, onun hazırlanması, istifadə qaydaları haqqında danışılıb. Musiqiçinin ilk albomu da "Balaban" adı altında hazırlanıb. Bu günə kimi bir çox mükafatlara layiq görülən Ə.Səmədov Azərbaycanın milli musiqi aləti olan balabanı dünyaya tanıdıb.Balabanın həzin, kövrək, eyni zamanda qəlbləri oxşayan səsi nədənsə daha çox başqa millətlərin nümayəndələrini özünə cəlb edir (5, s. 19).

Mahir balaban və ney, həmçinin digər milli nəfəs çalğı alətlərinin mahir ifaçıları olan Abbasqulu və İlham Nəcəfzadə qardaşlarının xidmətlərini də xüsusi olaraq qeyd etmək lazımdır. Onlar da öz növbəsində yeni nəsil nümayəndələrinə qədim musiqi alətlərimizin sirlərini aşılamaqda həvəslə çalışırlar. Son illər bu alətə qızlar da həvəs göstərirlər. Qeyd edək ki, İlham Nəcəfovun tələbələri arasında balabançı qız da var. Musiqi məktəbində fleytada ifa edən Zərifə Məmmədova balaban üzrə dərs alaraq balabanın təbliğatçılarından birinə çevrilmişdir. Bu gün artıq xanımlarımızın da balaban alətini təbliğ etməyə başlaması sevindiricidir.

Son zamanlar balaban həm də gənc nəslin sevimli musiqi alətinə çevrilib. Peşəkar gənclərin istər solo, istər qrup halında çıxışı isə insanın ruhunu oxşayır. Balaban beynəlxalq arenalarda həzinliyi ilə səsimizi dünyaya çatdırır. İstər ölkəmizdə keçirilən beynəlxalq tədbirlərdə, istərsə də digər ölkələrdə baş tutan konsert və müsabiqələrdə Azərbaycan balaban ifaçılarına yer verilir. Gənclərimiz balaban alətində qüsursuz ifaları ilə ən yüksək yerlərə layiq görülərək, əvəzsiz Azərbaycan musiqi səltənətinin özünəməxsusluğunu və ucalığını bütün dünya xalqlarına nümayiş etdirirlər. Belə ki, son günlərdə – daha dəqiq desək, 2017-ci il 27-29 iyul tarixlərində Azərbaycan Milli Konservatoriyasının İfaçılıq (Xalq Çalğı Alətləri – Balaban) fakültəsinin I kurs tələbəsi Ramin Pələngov San Marinoda keçirilən "Testene Art San Marino" beynəlxalq musiqi müsabiqəsinin qalibi olub. O bu müsabiqədə Azərbaycanın xalq mahnısı "Sarı gəlin" və İtaliyanın xalq mahnısı

"O Sole Mio" əsərlərini ifa edib. 20-ə yaxın ölkənin qatıldığı müsabiqədə Ramin Pələngov I yerə layiq görülüb və müsabiqənin kuboku ilə mükafatlandırılıb [9]. Sevindirici haldır ki, belə gənclərimizin sayı günü-gündən artmaqdadır.

Gənclərin balabana müraciəti alətin gələcək nəsillərə ötürülməsinə zəmin yaradır. Sözsüz, bu da alətin aliliyindən və istənilən yaş dövründə olan insana təsirindən xəbər verir. Bu, həm də alətə böyük sevginin təzahürüdür. Eyni zamanda Azərbaycan nəfəs çalğı alətlər, o cümlədən balaban ifaçıları xarici qastrollara getmək və xaricdə disklərini buraxmaqla nəfəs çalğı alətlərini və ifaçılıq ənənələrini bütün dünyaya tanıtmağa başlayıblar.

Bu gün AMK-da nəfəs çalğı alətləri tədris edən müəllimlərimiz, o cümlədən İlham Nəcəfov, Coşqun Sadıqov, Şirzad Fətəliyev bu alətə sevgilərini gənclərə aşılayaraq onun geniş arealda yayılmasına təkan verirlər. C.Sadıqovun tələbələrindən Emin Fətalıyev, Mais Muradov, İdris Tağıyev, Elnur Hüseynov, Ramin Pələngov, Elşad Şıxəliyev və başqaları öz ifaları ilə təkcə Azərbaycanda deyil, onun hüdudularından kənarda da balaban alətinin səsini ucaldırlar.

İnanırıq ki, yaxın gələcəkdə bəstəkarlarımız balaban aləti üçün məxsusi olaraq pyeslər, irihəcmli əsərlər bəstələyəcəklər. Məhz bu əsərlərin də sayəsində ifaçılarımızın repertuarı daha da genişlənəcəkdir. Qədim musiqi alətləri xalqımızın tarix, mədəniyyət və mənəviyyat abidəsidir. Unudulmuş abidələri bərpa etmək, onları yenidən həyata qaytarmaq həm də tarixin qaranlıq səhifələrini işıqlandırmaq deməkdir.

## ƏDƏBİYYAT:


1. Abdullayeva S.A. Azərbaycan çalğı alətləri dünyanı valeh edir. B.: Nurlar, 2016, 288 s.
2. Bünyadov T. Əsrlərdən gələn səslər. B.: Azərnəşr, 1993, s.231
3. Bayramova Z. Azərbaycan musiqisi yeni inkişaf mərhələsini yaşayır. // "Səs" qəzeti. 2008, 15 oktyabr, s. 11
4. Balaban məktəbi dərsliyi və Ərtoğrul Cavid. Azərbaycan qeyri-maddi mədəniyyət abidələri və Ərtoğrul Cavid. On üç cilddə, XI cild. B.: Proqres, 2015, 152 s.
5. Cabbarov E. Balabanımıza sahib çıxaq. // "Konservatoriya" № 1, 2011, s.15-19
6. Əliyev N.M. Balaban məktəbi. B.: Şirvannəşr, 2002, 168 s.
7. Kərimov M.T. Azərbaycan musiqi alətləri. B.: Yeni nəsil, 2002, 175s.
8. Nəcəfzadə A.İ. Etnoorqanologiya. Dərslik. B.: Ecoprint, 2016, 304 s.
9. Samadov A.İ. Balaban metodu. İstanbul. Ege Reklam Basım Sanatları Limited Şirketi, 2008, 136 s.

**Saytoqrafiya**

10. İsgəndər bəy Münşi, Vikipediya, açıq ensiklopediya, URL:https://az.wikipedia.org/wiki/İsgəndər_bəy_Münşi
11. Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi, Əlixan Səmədov dostluq konsertində çıxış edib, 16 mart, 2016, URL:http://medeniyyet.az/page/news/15897/Elixan-Semedov-dostluq-konsertinde-cixis-edib.html
12. Balaban səsi: sirdaş, yoldaş, qəmdaş... , 15 avqust, 2016, URL: - ApaTV / URL:apa.tv/video/32428
13. Vikipediya, açıq ensiklopediya. Həsənağa Sadıqov, URL:https://az.wikipedia.org/wiki/H%C9%99s%C9%99na%C4%9Fa_Sad%C4%B1qov

**Джошгун САДЫКОВ**
Преподаватель АНК

## РОЛЬ ИСПОЛНИТЕЛЕЙ В РАЗВИТИИ ИНСТРУМЕНТА БАЛАБАН

***Резюме:*** *В статье обсуждается роль исполнителей в развитии инструмента балабан.Представлена информация о творчестве исполнителей на балабане и работы, проводимыедля продвижения этого инструмента по всему миру. Также освещается интерпретация инструмента балабан в литературно-исторических источниках.*

***Ключевые слова:*** *балабан, музыка, ремесленник, исполнитель, культура*

**Joshgun SADYKOV**

Lecturer of ANC

## THE ROLE OF PERFORMERS İN THE DEVELOPMENT OF THE BALABAN İNSTRUMENT

***Summary:*** *The article discusses the role of performers in the development of the balaban instrument. It reflects the information about the creativity of the Balaban artists and the work carried out to promote this instrument all over the world. The interpretation of Balaban's instrument in literary historical sources is also presented.*

***Key words:*** *balaban, music, performer, performer, culture*

**Rəyçilər:** professor Ağasəlim Abdullayev;

dosent Malik Mansurov